## Səyyar qəbullar

# Xırxatala kəndində görüş

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev idarə, müəssisə və təşkilat rəhbərləri ilə birlikdə kənd və qəsəbələrdə problemlərin həlli, arzu və təkliflərin öyrənilməsi üçün əhali ilə səyyar görüş-qəbullar keçirir. Bu görüşlər qabaqcadan tərtib və təsdiq olunmuş qrafikə əsasən həyata keçirilir.



Növbəti qəbul aprelin 30-da Xırxatala kəndində keçirildi. Görüşdə ziyalılar, ağsaqqallar, ictimaiyyətin nümayəndələri və kənd əhalisinin xeyli hissəsi iştirak edirdi.

Tədbiri açan kənd icra nümayəndəsi İzafəddin Əliyev RİH başçısına kəndin ümumi vəziyyəti barədə məlumat verdi.

Qeyd etdi ki, kənddə 398 ailə təsərrüfatında 1546 nəfər əhali yaşayır. Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq, meyvəçilik və tərəvəzçilik məhsulları istehsalıdır.

Kənddə 150 hektara buğda 54 hektara arpa toxumu səpilmişdir. Sahələrdə bitiş ürəkaçandır. Bol məhsul gözlənilir.

Görüşdə qeyd olundu ki, görülən işlərlə yanaşı, kənddə hələ problemlər də vardır.

Kənd sakinləri tərəfindən qaz xəttinin çəkilməsinə, yolların təmirinə, işıq dirəklərinin dəyişdirilməsinə, sel sularından mühafizə üçün beton bəndin tikilməsinə, arteziana sayğac quraşdırılmasına ehtiyac olduğu bildirildi.



Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, yeni iş yerlərinin açılmasının möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd etdi, hər bir kənddə sosial-iqtisadi inkişafın bundan sonra da davam edəcəyini bildirdi.

Tədbirin sonunda Səbuhi Abdullayev görüşdə qaldırılan məsələlərin həlli üçün müvafiq təşkilatlara tapşırıqlar verdi.

**Oqtay MƏMMƏDOV.**

# Uşaq bağçasına baxış

Son illər ölkəmizdə, o cümlədən Qəbələdə təhsil sisteminin inkişafına və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə əhəmiyyətli dərəcədə diqqət yetirilir. Bütün bölgələrdə müasir standartlara cavab verən yeni-yeni məktəblər tikilib istifadəyə verilmiş, ehtiyacı olan təhsil ocaqları təmir edilmiş, körpələr evi, uşaq bağçalarının tikintisinə, təmirinə önəm verilmişdir. Bu diqqət və qayğı ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin bariz nümunəsidir.

Qəbələ rayonunda da təhsil sistemində və uşaq bağçalarında görülən tikinti və yenidənqurma işləri ürəkaçandır.



Ötən il rayonun ən böyük yaşayış məntəqələrindən sayılan Bum qəsəbəsində 25 yerlik yeni, yaraşıqlı, geniş otaqlardan ibarət uşaq bağçası tikilib istifadəyə verilmişdir. Bağça lazımi avadanlıqlarla təchiz edilmiş, uşaqların təlim və tərbiyəsi üçün lazımi şərait yaradılmışdır.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev bağçalardakı vəziyyət, göstərilən xidmət işlərinə, eyni zamanda onların ərzaqla təminatına daim nəzarət edir, kənd və qəsəbələrdə əhali ilə görüşərkən uşaq bağçalarında olur. Aprel ayının 29-da Səbuhi Abdullayev, ictimaiyyətin nümayəndələri Bum qəsəbə uşaq bağçasında olmuşlar. Səbuhi Abdullayev burada olan ərzaq məhsullarının keyfiyyəti, uşaqlara verilən yeməklər, təlim-tərbiyə, əmək-intizamı və digər problemlərlə maraqlanmışdır.

Sonda o, bağça rəhbərliyinə müvafiq tövsiyə və tapşırıqlarını vermişdir.

**Oqtay MƏMMƏDOV,**
**Foto S. UMUYEVİNDİR**

## Heydər Əliyev–90

# Ümummilli lider yad edildi

24 aprel tarixdə Qəbələ Uşaq İncəsənət Məktəbində ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş iclas keçirildi. Məktəbin direktoru Ə. Qəndiyev ulu öndərin xalqımızın azadlığı və müstəqilliyi yolunda gördüyü işlərdən danışdı.

Sonra məktəbin gənc müəllimləri Cahan Mirzəyeva və Elnarə Qocayeva Heydər Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi qayğıdan söhbət açdılar, xalqının azadlığı və müstəqilliyi üçün mübarizə apararkən həmişə millətinə və xalqına arxalandığını qeyd etdilər.



Sonra məktəbin kollektivi Heydər Əliyev muzeyini ziyarət etdilər və büstü önünə gül dəstələri qoydular. Daha sonra isə ulu öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə baxdılar. Həmçinin ümummilli liderin fotolarından ibarət sərgi də tamaşaçılar tərəfindən maraqla izlənildi.

**Foto və mətn**
**Səhrab UMUYEVİNDİR.**

# Rəsm qalereyasında tədbir

23 aprel tarixdə Qəbələ Dövlət Rəsm Qalereyasında ümummilli lider Heydər Əliyevin 90-cı ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə məktəblilərin rəsm əsərlərindən ibarət sərgi və tanınmış rəssam Kamil İsgəndərovun çəkdiyi Heydər Əliyevin portreti nümayiş olunurdu.

Qalereyanın direktoru Malik Ağayev tədbiri giriş sözü ilə açaraq Heydər Əliyevin xüsusi rəssamlıq təhsili alması və gələcəkdə rəssam olmaq istəyinin sonralar onun fəaliyyətində qurub-yaratmaq şövqünü formalaşdırdığını bildirmişdi.

Hələ sovet dönəmində Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevin böyük sənət adamları arasında dərin hörmət və nüfuz qazandığını söyləmiş , Azərbaycanın tanınmış sənət adamları olan Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə, Nadir Əbdürəhmanov, Mirəli Mirqasımov, Ömər Eldarov və başqa rəssamlarla şəxsən görüşərək onların yaradıcılıqları ilə yaxından maraqlanan, ünsiyyət yaradan ümummilli lider bu addımıyla milli mədəniyyətimizin daha da inkişaf etməsi üçün stimul yaratdığını bildirmişdi.

Tədbirdə "Heydər Əliyev və Azərbaycan incəsənəti" başlığı altında geniş məruzə ilə qalereyanın muzey baxıcısı Elnurə Məmmədova çıxış etmişdir. Sonra qalereyanın kollektivi Heydər Əliyev Mərkəzində olaraq ümummilli lider Heydər Əliyevin büstü qarşısına gül dəstələri qoyaraq ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığı ilə tanış olmuşlar.

**Cəmilə ƏLİYEVA,**
**qalereyanın işçisi.**

# Fenomen şəxsiyyət

Kürd kəndində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan kənd icra nümayəndəsi Eyyub Alıyev ulu öndər Heydər Əliyevin dahiliyindən danışmış, onun fenomen şəxsiyyət olduğunun bütün dünyada qəbul edildiyini qeyd etmiş, dövlətlərarası siyasətdə ən əsası isə öz ölkəsinin taleyüklü problemlərinin həllində uzaqgörənliyini, prinsipiallığını, çevikliyini tutarlı faktlar əsasında toplantı iştirakçılarının nəzərinə çatdırmışdır.

Ümummilli liderin amallarının bu gün xalqın gündəlik fəaliyyətində, əməllərində yaşadığını qeyd etmiş, bu amalların dahi rəhbərimizin siyasi kursunu uğurla davam etdirən Prezidentimiz İlham Əliyevin gündəlik fəaliyyətində geniş əksini tapdığını vurğulamışdır.

Kənd sakinlərindən Həsənalı Baxşıyev, Ağa Alıyev, kənd tibb məntəqəsinin müdiri Ceyhun Kazımov ulu öndərin nümunəvi həyat yolu, müstəqil Azərbaycan dövlətinin çiçəklənməsi üçün gördüyü işlərdən danışmış, Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızın daha uğurlu gələcəyə addımladığını söyləmişlər.

* * *

Ulu öndərin anadan olmasının 90-cı ildönümü münasibətilə rayonumuzun qəsəbə və kəndlərində tədbirlər keçirilir.

**«QƏBƏLƏ».**